İkili standartlar əməkdaşlığın və dialoqun inkişafına mane olur

2001-ci il yanvarın 17-də AŞ Nazirlər Komitəsinin iclasında Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzvlüyünə dair qərar qəbul edilmişdir

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Ulu öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı ilə bütün sahələrdə əsaslı islahatlara başlanıldı və həyata keçirilən işlər qısa müddətdə müsbət dəyişikliklərlə müşahidə olundu. İnsan hüquqlarının müdafiəsi, qanunun aliliyinin təmin edilməsi dövlət siyasətinin əsas prioritetlərindən biri olaraq müəyyən edildi. Dövlətçiliyin möhkəmlənməsinə və milli mənafenin qorunmasına xidmət edən məqsədyönlü siyasət nəticəsində dünya dövlətləri ilə müxtəlif sahələrdə həm ikitərəfli, həm də çoxtərəfli qaydada bərabər, qarşılıqlı faydalı münasibətlər zəminində əlaqələr quruldu. Ölkəmiz Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Müstəqil Dövlətlər Birliyi, İslam Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu qurumlarda təmsil olundu.

Demokratik dövlət quruculuğu yolunu tutan Azərbaycan insan hüquq və azadlıqlarının qorunması, qanunçuluğun möhkəmləndirilməsi istiqamətində əsaslı addımlar atdı. 1992-ci ildə Avropa Şurası ilə əlaqələrin əsası qoyuldu. Azərbaycan Parlamenti Avropa Şurasına "xüsusi dəvət edilmiş qonaq" statusu almaq üçün müraciət etdi və 1995-ci ilin fevral ayında AŞ Parlament Assambleyası (AŞPA) Bürosunda həmin müraciətə baxıldı. Bir il sonra ölkəmizə "xüsusi dəvət edilmiş qonaq" statusunun verilməsi barədə qərar qəbul olundu. 1996-cı il iyulun 8-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında", 20 yanvar 1998-ci ildə "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında", 1999-cu il mayın 14-də isə "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi tədbirləri haqqında" sərəncamlar imzaladı.

AŞPA-nın 2000-ci ildə keçirilmiş sessiyasında Azərbaycanın Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edilməsinə müsbət rəy verildi və AŞ Nazirlər Komitəsinin 17 yanvar 2001-ci ildə keçirilən iclasında ölkəmizin Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edildi. Həmin il yanvarın 25-də dahi lider Heydər Əliyevin iştirakı ilə Strasburqda bu münasibətlə rəsmi mərasim keçirildi və qurumun binasının qarşısında Azərbaycanın dövlət bayrağı qaldırıldı.

Avropa Şurasına eyni gündə üzvlüyə qəbul olunan Azərbaycan və Ermənistan təşkilat qarşısında mühüm öhdəliklər götürdülər. Keçmiş Dağlıq Qarabağ münaqişəsinin həlli bu öhdəliklərdən biri idi. Təşkilatın 2001-ci il aprelin 24-27-də keçirilən plenar sessiyasında ölkəmizin AŞPA-dakı nümayəndə heyəti ilk dəfə olaraq qurumun iclasında tamhüquqlu üzv kimi iştirak etdi, 9 ölkə və 5 siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən imzalanmış "Ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımının tanınması" adlı yazılı bəyanat və 14 ölkəni təmsil edən 20 nümayəndə tərəfindən imzalanmış "Ermənistan və Dağlıq Qarabağda saxlanılan müharibə əsirləri və girovları" adlı tövsiyə üçün təklif AŞPA-nın rəsmi sənədləri qismində yayıldı. Azərbaycan Avropa Şurası ilə əməkdaşlıq çərçivəsində təsisatın 76 müxtəlif konvensiyasına qoşuldu. İlk vaxtlar qurumun iclaslarında Ermənistanın təcavüzkar siyasəti pislənilsə də, sonralar erməni havadarlarının siyasi sifarişi ilə AŞPA-nın tribunasından ölkəmizin əleyhinə sərt tənqidlər, heç bir əsası olmayan ittihamlar səsləndirildi. Son illər bu münasibət daha kəskin xarakter aldı, təşkilat qərəz və kin yuvasına döndü.

Fəaliyyətində qanunun aliliyini əsas prinsip olaraq müəyyənləşdirməli, əməkdaşlıq və dialoq platforması rolunu oynamalı olan təşkilat, təəssüf ki, ayrı-ayrı maraqlı qrupların alətinə, təzyiq vasitəsinə çevrilib. Bu ölkəmizə münasibətdə açıq şəkildə özünü göstərir. Azərbaycanofob, islamofob meyillərin gündən-günə gücləndiyi Avropa Şurasında beynəlxalq hüquq normaları çərçivəsində ərazi bütövlüyü və suverenliyini bərpa edən ölkəmizə qarşı şər, böhtan dolu ittihamlar irəli sürülür, heç bir əsası olmayan qətnamələr qəbul edilir. Azərbaycan işğalçı ölkədən fərqli olaraq təşkilat qarşısında üzərinə götürdüyü öhdəliklərə hər zaman sadiq qalsa da, mahiyyət etibarilə azərbaycanofobiyanı ehtiva edən AŞ ikili standartlar nümayiş etdirərək işğalçı, təcavüzkar Ermənistanın mövqeyindən çıxış edir. Demokratik dəyərləri, insan haqlarını kobud şəkildə pozaraq özünü nüfuzdan salan Avropa Şurası Parlament Assambleyası ölkəmizə qarşı antipatiyasını gizlətmir, pula satılmış, prinsipsiz, əqidəsiz deputatlar, siyasətçilər yalan, iftira dolu çıxışlar etməkdən, ölkəmiz haqqında uydurmalar yaymaqdan usanmırlar. Bu barədə Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsi zamanı deyib: "Mən hələ Avropa Parlamentinin rüsvayçı davranışını demirəm. Yeri gəlmişkən, yeni tərkib də köhnəsindən xüsusilə fərqlənmir. Həmin azərbaycanofobiya və tamamilə heç bir motivi olmayan eyni hücumlar. Biz, ümumiyyətlə, onları yada salmırıq, nə bu Avropa Parlamentini, nə də deputatları, hətta bu insanların kim olduğunu da bilmirik. Amma onlar Azərbaycanla mübarizəni özlərinin həyat amalına çeviriblər. Mən hələ suverenliyimizi bərpa etdikdən sonra, məhz bu səbəbdən elə üç ay sonra bizimlə bağlı ayrı-seçkilik edən Avropa Şurası Parlament Assambleyasını demirəm. Əgər onlar, özləri dedikləri kimi, guya insan hüquqlarının pozulmasından danışırlarsa, bunu 20 il ərzində edə bilərdilər. Niyə etmədilər?".

Ötən il yanvarın 24-də AŞPA-nın qış sessiyasında almaniyalı deputat Frank Şvabenin əsassız arqumentlər gətirərək ölkəmizin nümayəndə heyətinin etimadnaməsinin təsdiq edilməməsi təklifi, AŞPA Monitorinq Komitəsinin bunu məqbul sayması, Assambleyanın rəsmi Bakının üzərinə götürdüyü əsas öhdəlikləri yerinə yetirməməsi, jurnalistlərin həbsi, növbədənkənar prezident seçkisini müşahidə etmək üçün quruma dəvət göndərilməməsi və Qarabağda aparılmış hərbi əməliyyatlarla əlaqələndirərək bu barədə qətnamə qəbul etməsi azərbaycanofobiyanın açıq-aydın təzahürüdür. Demokratiya, insan hüquqları, ədalət kimi ali dəyərlərin arxasında siyasi korrupsiya, ayrı-seçkilik, etnik və dini nifrət, ikili standartlar, təkəbbür, şovinizm kimi çirkin niyyətləri gizlədən təşkilatın plenar iclasında ölkəmizin AŞPA-dakı nümayəndə heyətinin qurumda fəaliyyətini qeyri-müəyyən müddətə dayandırdığını bildirərək iclası tərk etməsi ermənipərəst Qərb dairələrinə tutarlı cavab oldu. Artıq bir ildir ki, Azərbaycan Parlamenti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını dayandırıb və qurumun ölkəmizin əleyhinə, qeyri-obyektiv mövqe sərgilədiyi, ikili standartlar nümayiş etdirdiyi müddətdə əlaqələrin bərpası mümkünsüzdür. Eyni zamanda təşkilatın ölkəmizin nümayəndə heyətinin səlahiyyətlərinin uzadılmasının əleyhinə səs verən 76 üzvü "arzuolunmaz şəxs" elan edilib. Ölkə başçısı İlham Əliyev bildirib ki, bu qadağa Azərbaycan nümayəndə heyətinin AŞPA-ya qayıtmasından sonra götürüləcək.

Avropa ölkələrinin bir çoxunda qanun pozuntularını, insanların hüquq və azadlıqlarının əlindən alınmasını, siyasi məhbusların mövcudluğunu, vətəndaş cəmiyyətinə, mediaya qarşı basqıları, korrupsiya hallarını görməzdən gələn Avropa Şurası müstəqil siyasət yürüdən Azərbaycanı günahlandırmağa fürsət axtarır, şər böhtan xarakterli qətnamələr qəbul edir. Təbii ki, rəsmi Bakı yalanlar girdabında boğulan qurumun hansısa bəyanatını heçə sayır, erməni lobbisinin təsiri altında verilmiş qətnamələri isə heç bir mahiyyət kəsb etməyən kağız parçası hesab edir. İkili standartlar AŞPA-nın etibarını sarsıdır, eləcə də üzv ölkələr arasında əməkdaşlığın və dialoqun inkişafına mane olur. Azərbaycan regionun lider dövlətidir, dünyada böyük nüfuz sahibidir. Ermənistana havadarlıq edən dövlətlər, aparıcı təşkilatlar Azərbaycanın 20 faizdən çox ərazisini zəbt edən işğalçı ölkəni bu yoldan çəkindirmək əvəzinə ona dəstək göstərsələr də, 30 illik erməni işğalına son qoyan müstəqil dövlətimiz dünya səviyyəsində mühüm aktora çevrilib. İqtisadi gücü, potensialı gündən-günə artan ölkəmiz beynəlxalq əməkdaşlıq əlaqələrini genişləndirən etibarlı tərəfdaş, dilindən, dinindən asılı olmayaraq bütün xalqların birgəyaşayışına mühüm töhfə verən sülhsevər, tolerant, multikulturalizmin ünvanı kimi tanınır. Heç bir ölkə ilə ədavəti olmayan, heç bir dövlətin daxili işlərinə qarışmayan, ölkələrin ərazi bütövlüyünə, suverenliyinə hörmətlə yanaşan müstəqil Azərbaycan humanist ideyaları rəhbər tutaraq inkişaf yolunda inamla irəliləyir.

Mehparə ƏLİYEVA,
"Respublika".